Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir

# Xeyirxah Samariyalı



Müəllif: Edward Hughes

İllüstrasiya edən: M. Maillot; Lazarus

Uyğunlaşdıran: Ruth Klassen, Sarah S.

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2017 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.


"Müəllim! Əbədi həyata malik olmaq üçün mən nə etməliyəm?"
Bu sualı verən İsanı
yoxlamağa çalışan bir vəkil idi.


İsa cavab verdi: “Allahın Qanununda nə deyilir?” Adam dedi: “Allahı və qonşunu sev”.
O soruşdu: “Bəs mənim qonşum kimdir?”


Adamın sualına cavab vermək üçün İsa Yerusəlimdən Yerixoya səyahət edən adam haqqında hekayəni danışdı.
Oğrular adama hücum etdilər.


Oğrular bacardıqları hər şeyi
oğurladılar, hətta yazıq səhayətçinin
paltarlarını da
götürdülər.


Onlar həmçinin onu çox pis döyərək,
yolun kənarında yarıcan halda
atıb getdilər.


Təsadüfən bir kahin
onun yanından keçdi.
Sözsüz ki, o,
yaralı
adama kömək edə bilərdi.



Xeyr! O, qan içində olan adamı görəndə yolun o biri tərəfinə
keçdi.


Tezliklə ayaq səsləri digər bir şəxsin yaxınlaşdığını xəbər verdi. O, Levili – məbəddə
kahinə kömək
edən
adam idi.


O yaxınlaşdı və yaralı adama baxdı,
sonra kömək etmədən yoluna
davam etdi.


Nəhayət, Samariyalı bir adam gəldi.
Yəhudilər Samariyalılara nifrət
edirdilər. İsanın hekayəsinə
qulaq asan
adamlar
Samariyalının ...


... qəhrəman olduğunu gözləmirdilər.
Amma o, qəhrəman oldu.
Samariyalı yaralının qayğısına
qaldı və dayanıb
ona kömək etdi.


Samariyalı diz
çökdü və ehtiyatla
dərman qoydu
və yad adamın
yaralarını sarıdı.


Samariyalı yolun kənarındakı kiçik mehmanxanada bütün geceni adamın qayğısına qaldı.

Səhər o, mehmanxana sahibinə yaralı adam sağalana qədər onun qayğısına qalmaq üçün pul ödədi.



Hekayə bitdi. İsa soruşdu: “Yaralı adamın qonşusu kim idi?”







Vəkil cavab verdi: “Onun qonşusu ona mərhəmət göstərən Samariyalı idi”.


İsa dedi: “Gedin, siz də elə edin”.
Qonşu ehtiyac içində olan hər bir kəsdir.
Biz ehtiyac içində olan adamlara kömək etməklə sevgi göstərə bilərik.
Bu, Allaha məqbuldur.

# Xeyirxah Samariyalı

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Luka 10

"Kəlamının açıqlanması nur saçır".
Məzmur 119:130

# Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət
olduğuna inanırsansa, onda bunu Allaha de:
Əziz İsa, mən inanıram ki, Sən Allahsan və
mənim günahlarıma görə ölmək üçün insan oldun
və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm,
həyatıma gəl və mənim günahlarımı bağışla ki,
mən indi yeni həyata malik ola və bir gün Səninlə
birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət
etməkdə və Sənin övladın kimi yaşamaqda mənə
kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün**
**Allahla danış! Yəhya 3:16**